# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Xoşbəxtlikdən qarşılıqlı mənafeyə əsaslanan, iki ölkənin dərin tarixi, dini və mədəni ortaqlıqlarından və qohumluq bağlarından qaynaqlanan dostluq münasibətlərimiz daha da dərinləşməkdə və inkişaf etməkdədir.

"Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılışı mərasimində İran İslam Respublikasının mərhum Prezidenti cənab Seyid İbrahim Rəisi ilə olan görüşünüzün, müzakirələrinizin və razılaşmalarınızın əhəmiyyətini vurğulayaraq, əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin inkişafı prosesi gələcəkdə də davam etdiriləcəkdir.

Sonda Allah-Taaladan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, dost, qardaş və qonşu ölkə olan Azərbaycan Respublikasının xalqına isə rifah və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Məhəmməd MOXBER,***
***İran İslam Respublikasının Prezidenti vəzifəsini icra edən***

❖ ❖ ❖

Zati-aliləri!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Son 30 ildə ölkələrimiz arasında qardaşlıq münasibətləri xüsusilə iqtisadiyyat və ticarət, mədəniyyət, təhsil, eləcə də müdafiə sahələrində dərinləşən çoxsahəli əməkdaşlığımız əsasında möhkəmlənmişdir.

Bu müsbət tendensiyanı davam etdirmək və ikitərəfli əlaqələri yeni zirvələrə yüksəltmək niyyətindəyik.

Zati-alinizin Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması istiqamətində şəxsi səylərini və qətiyyətini yüksək qiymətləndirirəm. Pakistan sınaqlar zamanı qürurla Azərbaycanın yanında olub və ölkənin suverenliyinə, ərazi bütövlüyünə güclü dəstək verməkdə davam edəcəkdir.

Cənab Prezident, Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və firavanlıq diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan zati-alinizə və xalqınıza ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

İnanıram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənərək genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ali missiyanızda uğurlar, Azərbaycan xalqına isə davamlı əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

Azərbaycan.- 2024.- 11 iyun, № 122.- S.3.